№ 8 (951) 23 fevral - 1 mart 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

XOCALI QAN YADDAŞIMIZ 25 il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

**Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir.**

**İlham ƏLİYEV**

## M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 1031-ci maddəsinin I hissəsini rəhbər tutaraq qərara alıram:

Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 21 fevral 2017-ci il**

## *Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva: "Cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam"*

Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

Fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

İclasda Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı təqdim edərək deyib:

-Bu gün mənim Sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.

Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərmişdir. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilmişdir. Bir çox hallarda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur.



Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur.

Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır.

Təsadüfi deyil ki, bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Bu Oyunların Təşkilat Komitəsinin sədri də odur və hazırlıq işləri yüksək səviyyədə aparılır. Əminəm ki, biz İslam Həmrəyliyi Oyunlarını da yüksək səviyyədə keçirəcəyik.

Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etmə-






yimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış edərək dedi:

-Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.

Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur.

Ötən illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.

Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir.

Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Hörmətli cənab Prezident.

Hörmətli Təhlükəsizlik Şurasının üzvləri.

Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Göstərdiyiniz etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

* * * *

İclasda Təhlükəsizlik Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin qərarını dəstəklədiklərini bildirdilər və Mehriban Əliyevaya fəaliyyətində uğurlar arzuladılar.



# ÖLKƏLƏRİMİZ ARASINDA YENİ ƏMƏKDAŞLIQ FORMATI REGİONDA BİRGƏ BAĞLILIQ, ETİBARLILIQ VƏ TƏRƏFDAŞLIQ YARADIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 53-cü Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün fevralın 16-17-də Almaniya Federativ Respublikasında işgüzar səfərdə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru? OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda "dəyirmi masa"da iştirak edib.

Münxen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinger müxtəlif ölkələrdən siyasətçilərin, biznes strukturlarının nümayəndələrinin, elm adamlarının iştirak etdiyi bu konfransda təhlükəsizlik, enerji və digər sahələrə aid mühüm məsələlərin müzakirə olunduğunu bildirmişdir.

Dövlətimizin başçısı "dəyirmi masa"da çıxış etmişdir. O, demişdir:

- Enerji təhlükəsizliyini ölkənin milli təhlükəsizliyindən ayırmaq olmaz. Bu baxımdan Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə öz vacib rolunu oynayır. İndi isə irimiqyaslı qaz təchizatı layihəsinin həyata keçirilməsinə gəldikdə, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da öz vacib rolunu oynayacaq.

Əlbəttə, bu gün regionumuzun və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu və töhfəsi haqqında danışdıqda biz Azərbaycanın enerji strategiyasının əvvəlinə - 1990-cı illərin ortalarına qayıtmalıyıq. O zaman həm daxili, həm də xarici çoxsaylı çətinlikləri olan, Ermənistanın işğalı nəticəsində 1 milyon evsiz qalmış vətəndaşı olan, yalnız üç il müstəqil olan gənc ölkə Xəzər dənizinə dünyanın aparıcı enerji şirkətlərini ilk dəfə dəvət etmişdi. Bu, tarixi bir addım idi və nəinki təkcə Azərbaycanda, həm də regionda vəziyyəti dəyişən bir qərar idi. İndi isə bu addım regionun enerji xəritəsini dəyişmişdir. Biz sadəcə həmin vaxtdan bir il əvvəl vətəndaş müharibəsi, işğal, 1 milyon qaçqın və köçkünü olan və uğurlu inkişaf üçün heç bir imkanları olmayan ölkəyə investisiyalar cəlb etməyə nail olduq. Bizim üçün o zaman Azərbaycanın neft ehtiyatlarına sərmayənin yatırılması müstəqilliyimizin gücləndirilməsi və çətinliklərin aradan qaldırılması üçün yeganə yol idi. Buna görə 1990-cı illərin ortaları bizim üçün vacib bir dövr idi. Biz investisiyaları cəlb etdik, aparıcı enerji şirkətləri ilə Azərbaycanın nəhəng neft yataqlarından istehsala başladıq və neftimizi nəql etmək üçün çoxsaylı boru kəməri sistemini inşa etdik. Bu gün bizim bütün istiqamətlərdə 7 kəmərimiz - 3 neft kəmərimiz və 4 qaz kəmərimiz var. Buna görə də bizim birinci hədəfimiz özümüzün enerji təhlükəsizliyimizi, öz maraqlarımızı təmin etmək və insanlarımızın yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün nəhəng neft ehtiyatlarımızı hasil etmək iqtidarında olmaq idi. Sonrakı mərhələdə kəmərlər tikildikdə bu layihə regional əməkdaşlıq layihəsinə çevrildi. Bu neft kəmərləri Azərbaycanı Qara dəniz və Aralıq dənizi ilə birləşdirir. Bu kəmərlər bizə enerji ehtiyatlarını nəql etməyə kömək edən ölkələrin də enerji təhlükəsizliyini təmin etməyə xidmət edir.

Sonra biz Xəzər dənizinin şərq sahillərindən neft və neft məhsullarının çatdırılması üçün tranzit ölkəyə çevrildik. Beləliklə, Azərbaycan müxtəlif vasitələrlə, dəmir yolu və neft kəməri ilə neftin nəqlində öz vacib rolunu oynayır. Eyni zamanda, biz Xəzər dənizinin şərq sahilində yerləşən tərəfdaşlarımızın təchizat marşrutlarını şaxələndirməyə kömək edirik. Çünki enerji təhlükəsizliyindən söhbət açıqda hesab edirəm ki, şaxələnmə əsas termindir. Adətən şaxələnmədən danışdıqda biz istehlakçılar üçün şaxələndirməni nəzərdə tuturuq. Biz bunu anlayırıq. Lakin istehsalçılar üçün də şaxələndirmə nəzərdə tutulur, xüsusilə bu istehsalçıların Azərbaycan kimi açıq dənizə çıxışı olmadıqda.

Yeri gəlmişkən, bəzi Avropa ölkələri neftin 30-40 faizini Azərbaycandan əldə edirlər və etibarlı tranzit ölkə, digər ölkələrin etibar edə biləcəyi tərəfdaş ölkə kimi Azərbaycan regionda özünə ad qazanıb.

Bu gün çoxsaylı digər ölkələr, şirkətlərlə birlikdə və Avropa Komissiyasının dəstəyi ilə biz "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik. Bu layihə 1990-cı illərdə icrasına başladığımız layihələrin davamıdır. Azərbaycanda böyük qaz yataqlarını aşkar edən kimi bu qazı beynəlxalq bazarlara nəql etmək üçün qərar qəbul olunub.

Mən bu yaxınlarda Brüsseldən qayıtmışam və biz cənab Şefçoviçlə bu vacib layihəni müzakirə etdik. Həmçinin bu layihəni Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentləri ilə müzakirə etmişəm. Avropa Komissiyası ilə Azərbaycan arasında enerji sahəsi üzrə strateji tərəfdaşlıq haqqında imzalanmış memorandum var. Bu gün Cənub Qaz Dəhlizi artıq reallıqdır. Bu, Azərbaycanı Avropa bazarları və Avropa bazarlarına aparan marşrut boyunca yerləşən ölkələrlə birləşdirən üç fərqli boru kəmərindən ibarət inteqrasiya olunmuş boru kəməri sistemidir. Bu layihə tamamilə yeni bir regional əməkdaşlıq formatını yaratdı. Söhbət Cənubi Qafqaz ölkələri olan Gürcüstan, Azərbaycan və Türkiyədən, sonra da Yunanıstan, Bolqarıstan və İtaliya kimi Avropa İttifaqı ölkələrindən, həmçinin namizəd ölkə kimi Albaniyadan gedir. Beləliklə, bütün bu tərəflərin maraqlarını təmin etmək asan iş deyil. Bu səbəbdən Avropa Komissiyası ilə birlikdə biz "Cənub Qaz Dəhlizi" layihəsinin Məşvərət Şurası adlanan formatı işə saldıq. Artıq Məşvərət Şurasının iki iclası Bakıda keçirilib və üçüncü iclas cənab Şefçoviçin iştirakı ilə fevral ayının 23-də baş tutacaq. Mühüm nailiyyətlər var. Sizə deyə bilərəm ki, "Cənub Qaz Dəhlizi" layihəsinin əsas seqmenti olan Trans-Anadolu boru kəmərinin icrasının təqribən 65 faizi artıq tamamlanıb. Cənubi Qafqaz boru kəməri adlanan digər bir seqmentin icrasının 80 faizə yaxın hissəsi tamamlanıb və TAP adlanan Trans-Adriatik boru kəməri təqribən 34-35 faiz icra olunub. Dünyada ən böyük qaz yataqlarından biri olan "Şahdəniz" yatağının işlənilməsi artıq 90 faiz tamamlanıb. Hədəfimiz Azərbaycanın ilk təbii qazını gələn il bazarlara çatdırmaqdır və bəzi tərəfdaş ölkələrdə süni gecikmələr olmadığı təqdirdə bu layihəni 2020-ci ilə qədər tamamlamaqdır.

Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsinin bütün dörd seqmentinin səhmdarıdır və Azərbaycan investor qismində də çıxış edir. Biz, həmçinin Dünya Bankından, beynəlxalq maliyyə təşkilatlarından, Asiya İnkişaf Bankından, Asiya İnfrastruktur Bankından vəsaitləri cəlb etdik. Biz Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından maliyyə vəsaitinin ayrılmasını gözləyirik. Beləliklə, bu, ölkəmizin təşəbbüskarı olduğu, həqiqətən də, geniş maliyyə, infrastruktur, texniki, enerji layihəsidir və biz bununla qürur duyuruq. Əlbəttə, bu ölkələr arasında yeni əməkdaşlıq formatı regionda tamamilə yeni bir əməkdaşlıq ruhunu yaradır. Bu, birgə bağlılıq, yəqinlik, etibarlılıq və tərəfdaşlıq yaradır. Beləliklə, layihə tamamlandıqdan sonra Avropa üçün təbii qaz təchiz edən etibarlı və yeganə yeni qaz mənbəyi qismində Azərbaycanın rolu əlbəttə ki, artacaq və Avropa təşkilatları ilə əlaqələrimiz güclənəcək.

"Dəyirmi masa"da Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatının şaxələndirilmə imkanları, bu sahədə mövcud cəhdlər, həmçinin neft qiymətləri və digər məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

X X X

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasında işgüzar səfəri çərçivəsində Münxendə "MAN SE" şirkətinin baş icraçı direktoru Yoaxim Dris, Kiyev şəhərinin meri, Ukrayna İslahatlar naminə Demokratik Alyansının sədri Vitali Kliçko, Xorvatiya Respublikasının Prezidenti Kolinda Qrabar-Kitaroviç, İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, "Kaspersky Lab" şirkətinin sahibi və baş icraçı direktoru Yevgeni Kasperski, Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım, "Leonardo" şirkətinin baş icraçı direktoru və baş meneceri Mauro Moretti və BMT-nin baş katibi Antonio Quterreş ilə görüşmüşdür.

XXX

Fevralın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirədə iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri fevralın 19-da başa çatıb.




**Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.**

**Heydər ƏLİYEV**

# XX ƏSRİN FACİƏSİ: XOCALI SOYQIRIMI




Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırmının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətinə qeyd etmişdir: "Bu amansız və qəddar soyqırım aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".

Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr, erməni idelologlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinəyət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

**1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində olmuşdu. Xocalı soyqırımı zamanı 613 nəfər ödürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.**

Bütün bunlar erməni hərbiçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Hücumda, həmçinin mayor Oqanyan Seyran Muşeqoviçin komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və praporşiki iştirak etmişdir ("Xocalının işğalına dair istintaq materiallarından").

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş,10 nəfər küt alətlə vurularaq öldürülmüşdür.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir.

Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir.

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Xocalı faciəsinin təşkilatçıları və icraçıları layiq olduqları cəzanı almalıdırlar. Heç bir cinayət cəzasız qalmamalıdır. XX əsr soyqırım və etnik təmizləmənin tarixini yazmış çoxlu sayda qanlı səhifələrin şahidi olmuşdur. Xocalı faciəsi bunların ən dəhşətlilərindən biridir. Bu dəhşətli cinayətdə əli olan hər bir kəs hər şeydən əvvəl öz vicdanı qarşısında məsuliyyət daşıyır. Lakin gün gələcək və onlar tarix məhkəməsi qarşısında cavab verəcəklər.

**Tarix heç nəyi unutmur...**











## Xocalı soyqırımı haqqında 7 dildə kitab işıq üzü görüb

Prezident İlham Əliyevin tapşırığına əsasən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "Xocalı Soyqırımı" adlı kitab orijinal dizayn və nəfis tərtibatla Azərbaycan, ingilis, rus, fransız, alman, ispan və ərəb dillərində çap edilib.

Komitədən Trend-ə verilən məlumata görə, kitabdakı bölmələrdə Azərbaycan ərazilərinin işğal tarixi, Ermənistanın təcavüzünün nəticələri barədə məlumat, xəritə, işğal nəticəsində dağıdılmış obyektlər və dəymiş ziyan haqqında müfəssəl məlumatlar verilib. Kitabın əsas bölümünə Xocalı rayonunun tarixi və işğaldan əvvəlki dövrü, ermənilər tərəfindən Xocalıda törədilmiş vəhşiliklər, soyqırım zamanı həlak olanlar, itkin düşənlər, əsir və girov götürülənlər haqqında ətraflı məlumat daxil edilib.




Bundan başqa, kitabda həmin günlərdə Xocalı soyqırımına dair dünya mətbuatında dərc olunan yazılar və xarici jurnalistlərin faciə haqqında fikirləri də yer alıb. Kitabda həmçinin Heydər Əliyev Fondunun və "Xocalıya ədalət" kampaniyasının Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması ilə bağlı fəaliyyəti, bununla bağlı dünyanın bir sıra ölkələrində soyqırım qurbanlarının xatirəsinə ucaldılan abidələr haqqında da məlumat verilir.

İki min nüsxə tirajla buraxılmış kitab Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə ölkəmizdə və xaricdə müntəzəm olaraq təşkil edilən beynəlxalq tədbirlərdə, həmçinin ölkəmizdə səfərdə olan xarici ölkələrdən olan nümayəndə heyətləri ilə keçirilən görüşlər zamanı paylanılacaq.

# Mərkəzi Bankdan 550 milyonluq not buraxılışı



Mərkəzi Bank izafi manat kütləsinin dövriyyədən çıxarılması (sterilizasiya) tədbirləri çərçivəsində növbəti not emissiyalarına hazırlaşır.

15 fevral 2017-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (Palata) tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankının (AMB) 2017-ci ildə emissiya ediləcək, hər birinin nominal dəyəri 100 manat olan 5 000 000 ədəd qısamüddətli notlarının emissiya prospekti 56S qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Palata tərəfindən həmçinin 17 fevral 2017-ci il tarixində AMB-nin hər birinin nominal dəyəri 100 manat olan 500 000 ədəd dövlət qısamüddətli notlarının buraxılışı 50200853S qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Sözügedən notların tədavül müddəti 35 gündür.

Emissiyaların hər biri 500 milyon və 50 milyon manat olmaqla cəmi 550 milyon manatdır. Tədavül müddəti də artırılaraq 28 gündən 35 günə qaldırılıb.

# "Dəmir Bank"da 43 milyon manatdan çox əməliyyat mənfəəti

Ötən il Bankın cəmi gəlirləri 107 milyon 896 min manat, o cümlədən faiz gəlirləri 94 milyon 496 min manat, qeyri-faiz gəlirləri isə 13 milyon 401 milyon manat təşkil edib. Faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra Bankın 43 milyon 341 min manat əməliyyat mənfəəti qalıb. Bank əməliyyat mənfəətini xalis mənfəətə deyil, əsasən gələcəkdə baş verə biləcək kredit və depozit itkiləri üzrə ehtiyata ayırıb. Ehtiyatlar Bankı gələcəkdə baş verə biləcək mənfi hallardan qoruyur, bir növ "təhlükəsizlik buferi" rolunu oynayır. Həmçinin, "DəmirBank"ın əməliyyat mənfəətinin yüksək olması xərclərə ciddi qənaət etdiyinə işarədir.

"DəmirBank" ötən il aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 44 milyon 957 milyon manat ayırdığından Bank ili 1 milyon 735 min manat zərər ilə başa vurub. Əlavə edək ki, Bank 2015-ci ildə 5 milyon 264 min manat zərər açıqlamışdı. Beləliklə, Bankın zərəri ildən-ilə azalır. Növbəti illərdə, Bankın mənfəətə çıxmasına əsas yaranır.

31 dekabr 2016-cı il tarixində "DəmirBank" 538,8 milyon manat cəmi aktivlərə, 491,9 milyon manat cəmi öhdəliklərə malik olub.

Qeyd edək ki, "DəmirBank" nizamnamə kapitalını 50 milyon manat artıracağını da açıqlayıb.

# Beynəlxalq Bank manat depozitinin faizlərini artırdı

Azərbaycan Beynəlxalq Bankının depozit şərtləri müştərilər üçün daha da sərfəli olub. İndi manatla depozitləri Azərbaycan Beynəlxalq Bankında 13%-ə qədər illik faiz dərəcəsi ilə yerləşdirmək olar. Müştərinin istəyindən asılı olaraq faizlər aylıq, yaxud müddətin sonunda ödənilir. Müştəriyə Bankda yerləşdirdiyi depozitin müəyyən həcmində kredit əldə etmək imkanı da yaradılır. Azərbaycan Beynəlxalq Bankı bu ilin əvvəlindən ABŞ dolları ilə depozitlər üzrə faiz dərəcəsini də 3,25%-ə qədər artırıb. Depozitlər Bankın bütün filiallarında qəbul olunur.

# «Kapital Bank»ın yenilənmiş Qubadlı filialı istifadəyə verildi



Kapital Bank filial şəbəkəsinin transformasiyası layihəsi çərçivəsində Qubadlı filialının yenilənmiş ofisini istifadəyə verib.

Yeni konsepsiya əsasında təmir edilən filial Sumqayıt şəhəri, H. Əliyev prospekti 11/38, sahə 7 (17-ci məhəllə) ünvanında yerləşir. Artıq müştərilər yeni filialda müasir bank xidmətlərindən istifadə edə bilərlər.

Kapital Bank-ın yeni konsepsiya əsasında təmir edilən Qubadlı filialı müştərilərə hesablaşma-kassa əməliyyatları, əmanətlər, müxtəlif növ kreditlər, plastik kartlar, pul köçürmələri, kommunal, rabitə və digər xidmətlərin ödənişləri, valyuta mübadiləsi və sair bank xidmətlərini təklif edir. Yeni filial müştərilərə ən yüksək səviyyədə xidmət göstərmək üçün bütün zəruri şəraitə və imkanlara malikdir.

2017-ci ildə yeni Buzovna şöbəsi fəaliyyətə başlayıb, Həzi Aslanov filialı yeni ünvana köçürülüb. Bankın yenilənmiş filiallarında vahid korporativ interyer dizayn standartları tətbiq edilib və bu proses hazırda davam etməkdədir. Cari ildə daha bir sıra şəhər və region filiallarının yeni konsepsiyaya uyğun əsaslı təmir olunması, yeni filial və şöbələrin açılması planlaşdırılır.

Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan Kapital Bank 90 filialı və 4 şöbəsi ilə müştərilərin xidmətindədir.

# Rabitəbank 4 aparıcı bank ilə ATM şəbəkəsini birləşdirdi

Rabitəbank kart istifadəçiləri üçün çox sərfəli və rahat şərtlərlə vəsaitlərini Rabitəbank daxil olmaqla 5 bankın ATM şəbəkəsi vasitəsi ilə nağdlaşdırmağa imkan yaradır. İndi Rabitəbankın genişlənmiş ATM şəbəkəsinə Bank Respublika, CDB (Caspian Development Bank), Muğan Bank və Turan Bank-ın ATM-ləri də daxildir.

Beləliklə, 5 bankın ATM şəbəkəsinda ümümilikdə ATM-lərin sayı 192-yə çataraq, Bakı şəhəri üzrə 131, bölgələr üzrə isə 61 bankomat təşkil edir. Rabitəbank ASC-nin bütün kart istifadəçiləri Bank Respublika, CDB, Muğan Bank və Turan Bank-ın ATM şəbəkələrindən nağd vəsaiti güzəştli 1% komissiya ilə nağdlaşdıra bilərlər. Rabitəbank, Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərən universal bankdır. 24 il ərzində Rabitəbank ölkənin iri bankları arasında mövqeyini qoruyub saxlamaqla yanaşı, böyük sayda müştəriləri banka cəlb etməklə və beynəlxalq maliyyə institutları ilə işgüzar əməkdaşlıq quraraq, bankın gələcəkdə də uğurlu inkişafı üçün möhkəm bünövrə yaratmışdır. Bankın xidmət şəbəkəsi ölkənin 15 regionunu əhatə edən 22 filial və bir şöbədən ibarətdir.

# "AtaBank"da pul köçürmə sistemləri üzrə aksiya davam edir




"AtaBank"da həyata keçirilən "Pul köçürənə/alana mobil danışıq dəqiqələri hədiyyə" aksiyası davam edir. Aksiyanın şərtlərinə əsasən, "AtaBank"ın filiallarında ən azı 500AZN/USD/EUR və ya 20 min RUB məbləğində pul köçürənə və ya alana 1 manatlıq, ən azı 1 min AZN/ USD/ EUR və ya 40 min RUB pul köçürənə və ya alana isə 2 manatlıq mobil danışıq dəqiqələri hədiyyə olunur.

500 -1000 AZN/EUR/USD köçürmə və ya ödəmə üçün - 1 manat

1001 – 2000 AZN/EUR/USD köçürmə və ya ödəmə üçün - 2 manat

2001-5000 AZN/EUR/USD köçürmə və ya ödəmə üçün – 3 manat

5001 AZN/EUR/USD artıq məbləğdə köçürmə və ya ödəmə üçün - 5 manat

Hazırda bankımız öz müştərilərinə 6 növ sürətli pulköçürmə sistemi üzrə xidmət göstərir. Bunlar Western Union, Zolotaya Korona, Blizko, Xəzri, Contact və Lider sürətli pulköçürmə sistemləridir.

# Bank VTB (Azərbaycan) maliyyə vəziyyətini açıqladı

Bank VTB (Azərbaycan) 2016-cı ili 2 milyon 625 min manat zərər ilə başa vurub.

Bankın maliyyə hesabatlarına əsasən, ötən il bankın faiz gəlirləri 49,6 milyon manat, qeyri-faiz gəlirləri 4,8 milyon manat təşkil edib. Faiz və qeyri-faiz xərcləri çıxıldıqdan sonra Bankın 5 milyon manat əməliyyat mənfəəti qalıb. Bank, aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına təxminən 7,7 milyon manat ayırdığından ili 2,62 milyon manat zərər ilə başa vurub.

31 dekabr 2016-cı il tarixində Bank VTB (Azərbaycan) 435 milyon 563 min manat cəmi aktivlərə, 399 milyon 431 min manat cəmi öhdəliklərə, 36 milyon 131 min manat cəmi balans kapitalına malik olub. Bankın məcmu kapitalı 50 milyon 680 min manat təşkil edib.

# İxracın 60,3 milyon dolları özəl sektorun payına düşdü



2017-ci ilin yanvar ayında Azərbaycanın özəl sektorunun ixracı 60 milyon 298 min dollar təşkil edib. Bu, 2016-cı ilin yanvar ayı ilə müqayisədə çoxdur. 2016-cı ilin yanvar ayında özəl sektorun ixracı 42 milyon 343.88 min dollar təşkil etmişdi.

Yanvarda Azərbaycanın cəmi ixracı 804 milyon 627.99 min dollar təşkil edib. İxrac keçən ilin müvafiq dövrünə nisbətən 25,71% artmışdır. İxracın 728 milyon 918.04 min dolları dövlət sektorunun, 60 milyon 298 min dolları özəl sektorun, 15 milyon 411 min dolları fiziki şəxslərin payına düşüb.

**İDXALDA ÖZƏL SEKTOR HÖKMRANLIQ EDİR**

Bu ilin Yanvar ayında Azərbaycanın idxalı 450 milyon 52.27 min ABŞ dolları təşkil edib ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 3,64% çoxdur. İdxalın cəmi 44 milyon 913.43 min dolları dövlət sektoru, 378 milyon 798.28 min dolları özəl sektor, 26 milyon 340.56 min dollar fiziki şəxslər tərəfindən həyata keçirilib.

# A-Qroup Sığortanın nizamnamə kapitalı 10 milyon manatı keçəcək

"A-Qroup Sığorta Şirkəti" ASC səhminin nominal dəyərinin artırılması üsulu ilə nizamnamə kapitalını 2 milyon manata yaxın artırır.

13 fevral 2017-ci il tarixində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən "A-Qroup Sığorta Şirkəti" ASC-nin qapalı yerləşdirmə üsulu ilə yerləşdiriləcək, hər birinin nominal dəyəri 1291 manat olan 7750 ədəd adi sənədsiz adlı səhmlərinin buraxılışı AZ1008006053 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Səhmlər "A-Qroup Sığorta Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin qeydiyyat nömrəsi AZ1007006054 və hər birinin nominal dəyəri 1033 manat olan 7750 ədəd adi adlı sənədsiz səhmlərinə konvertasiya yolu ilə yerləşdiriləcək.

Yerləşdirmə uğurla başa çatarsa, "A-Qroup Sığorta Şirkəti" ASC-nin nizamnamə kapitalı 8 milyon 5 min 750 manatdan 10 milyon 5 min 250 manata yüksələcəkdir.

# Dövlət istiqrazlarına böyük tələb

21 fevral 2017-ci il tarixində Bakı Fond Birjasında Maliyyə Nazirliyinin AZN nominallı, AZ0102002547 ISIN kodlu, 182 gün tədavül müddətli, 10000000 AZN həcmində qısamüddətli dövlət istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçirilmişdir. Hərrac zamanı 9 investor tərəfindən 16 sifariş təqdim olunmuşdur. Sifarişlərin nominal üzrə ümumi məbləği 36,215,300.00 AZN təşkil etmişdir. Sifarişlər 90.3858 AZN (21,4499%) və 93.0842 AZN (14,9823%) qiymət intervalında təqdim edilmişdir.

Hərracın yekunları üzrə bağlanılmış əqdlərin minimum qiyməti 92.3980 AZN (16,5912%) orta ölçülmüş qiyməti 92.7509 (15,7608%) təşkil etmişdir.

Bağlanılmış əqdlər üzrə hesablaşmalar 22.02.2017 (t+1) tarixində həyata keçiriləcəkdir.



İstiqrazların nominal qiymət üzrə reallaşdırılmış həcmi 1000000 AZN təşkil etmişdir.

İstiqrazların ödəmə tarixi 22 avqust 2017-ci ildir.

# "AzRe Təkrarsığorta" şirkəti "Qala Həyat Sığorta"dakı payını artırır

"Qala Həyat Sığorta" ASC-nin səhmdarlarının pay bölgüsü dəyişəcək. Bu barədə açıqlamasında Şirkətin əsas səhmdarı olan "AzRe Təkrarsığorta" ASC-nin İdarə Heyətinin sədr müavini Vüsal Abbasov məlumat verib. Onun sözlərinə görə, bu, "Qala Həyat Sığorta"nın nizamnamə kapitalının 28,57% və yaxud 2,86 mln. manat artırılaraq 12,87 mln. manata çatdırılması çərçivəsində baş tutacaq: "Həyat sığortası şirkətinin səhmdarlarının yığıncağında kapital artımının yalnız "AzRe Təkrarsığorta"nın hesabına həyata keçirilməsinə qərar verilib və digər səhmdar Nizami Məmməd oğlu Mahmudov buna etiraz etməyib".

Qeyd edək ki, Maliyyə Bazarlarına Nəzarət Palatası "Qala Həyat Sığorta" ASC-nin yeni səhm emissiyasını (AZ1006008226) ötən ilin dekabr ayında dövlət qeydiyyatına alıb. Emissiya şirkətin hər birinin nominal dəyəri 2 860 manat olan 1000 yeni səhminin dövriyyəyə buraxılmasını nəzərdə tutur. Səhmlər qapalı üsulla yerləşdiriləcək. Beləliklə, əldə olunmuş razılığa əsasən, yeni səhmlərin hamısını "AzRe Təkrarsığorta" alacaq. Bununla da, onun "Qala Həyat Sığorta"nın nizamnamə kapitalındakı payı indiki 88,57%-dən 91,11%-ə yüksələcək, N.Mahmudovun payı isə 11,43%-dən 8,89%-ə düşəcək.

Xatırladaq ki, "Qala Həyat Sığorta" 2008-ci ildə yaradılıb. Hazırda onun nizamnamə kapitalı 10,01 mln. manatdır. Şirkətin dövriyyədə hər birinin nominal dəyəri 2 860 manat olan 3 500 səhmi var.

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqlərində mövcud olan borclar tamamilə silinmişdir.

Fevral ayının 1-dən etibarən vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı şərtlərlə silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# AZƏRBAYCAN VƏ DANİMARKA ARASINDA İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI HAQQINDA KONVENSİYA İMZALANDI



Fevralın 17-də Vergilər Nazirliyində "Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya"nın imzalanması mərasimi keçirilib.

Konvensiyanı Azərbaycan tərəfdən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov, Danimarka tərəfdən isə bu ölkənin vergilər naziri Karsten Lauritzen imzalayıblar. Vergilər naziri Fazil Məmmədov ikiqat vergitutmanın aradan qaldırılmasının ölkələrimiz arasında iqtisadi ticarət əlaqələrinin inkişafına töhfə verəcəyini, eləcə də vergidən yayınmanın qarşısının alınmasına xidmət edəcəyini vurğulayıb. Danimarkanın vergilər naziri Karsten Lauritzen isə bu sənədin hər iki ölkənin şirkətləri və iş adamları üçün geniş imkanlar açdığını qeyd edib.

Son illər ölkəmizin ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənib. Bu günə kimi 52 ölkə ilə müvafiq sazişlər imzalanıb. Bunlardan 48-si artıq qüvvəyə minib, qalanları isə müvafiq prosedurlar tamamlandıqdan sonra qüvvəyə minəcək.

İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin əsas məqsədi mal və xidmətlərin sərbəst beynəlxalq mübadiləsinə maneçilik törədən vergi maneələrinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət və sərmayə qoyuluşunu təşviq etməkdir. Beynəlxalq vergi müqavilələrinin mövcudluğu vergi ödəyicilərinə münasibətdə ayrı-seçkiliyə yol verilməyəcəyinə təminat verir. Dövlətlər üçün isə bu, ziddiyyətli məsələlər üzrə birbaşa qarşılıqlı məsləhətləşmələrin aparılmasına və vergi məlumatlarının mübadiləsinə imkan yaradır.

İkiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər hazırlanarkən, ilk növbədə ölkəmizin iqtisadi əlaqələrinin geniş olduğu dövlətlərə xüsusi diqqət yetirilir. İndiyəcək imzalanmış müqavilələrdən 23-ü Avropa İttifaqına üzv ölkələri, digər müqavilələr isə respublikamızın əsas xarici ticarət tərəfdaşlarını, iqtisadi əlaqələrimizin mövcud olduğu və ya iqtisadi maraq doğuran dövlətləri əhatə edir.

Bu gün beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artması, iqtisadi və ticarət əlaqələrinin sürətlə genişlənməsi mövcud sazişlər şəbəkəsinin daha da genişləndirilməsini və yeni tərəfdaşların cəlb edilməsini obyektiv zərurətə çevirir. Hazırda Vergilər Nazirliyi bu istiqamətdə sistemli iş aparır. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərməklə yanaşı, həm də vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi orqanlarının bir-birinə qarşılıqlı yardım göstərməsi üçün əlavə imkanlar yaradır.

# Vergilər Nazirliyinin Tədris Mərkəzi beynəlxalq sertifikata layiq görülüb

Fevralın 20-də Vergilər Nazirliyinin Tədris Mərkəzinin İSO 9001: 2015 beynəlxalq sertifikatına layiq görülməsi ilə bağlı Mərkəzin direktoru Əli Həsənov KİV nümayəndələri üçün brifinq keçirib. Tədris Mərkəzində İSO 9001:2015 keyfiyyət idarəetmə sisteminin tətbiqinə 2016-cı ilin iyul ayından başlanılıb. Mərkəzin beynəlxalq standartlara uyğunluğunun müəyyən edilməsi məqsədilə Almaniyanın "TUV Thuringene. V" şirkətinin Azərbaycan ofisi tərəfindən audit aparılıb. Audit zamanı Mərkəzin idarəetməsinin, tədrisin keyfiyyətinin, resurslardan istifadənin, aparılan tədris siyasətinin, Tədris Mərkəzinin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların, Mərkəzin maddi-texniki təchizatının beynəlxalq standartlara uyğunluğu yoxlanılıb. Auditin nəticələrinə əsasən, Vergilər Nazirliyinin Tədris Mərkəzi İSO 9001:2015 beynəlxalq sertifikatına layiq görülüb. Brifinqdə vurğulanıb ki, Tədris Mərkəzinin keyfiyyətli idarəetmə sahəsində beynəlxalq sertifikasiyadan keçmək təşəbbüsü təlim siyasətinin daha da təkmilləşdirilməsi, bir sıra dövlət orqanları, ali məktəblər, eləcə də beynəlxalq səviyyədə əməkdaşlığın aparılması, Mərkəzin gələcəkdə regional akademiya statusu alması məqsədini daşıyır. Ə.Həsənovun sözlərinə görə, son illər ərzində vergi sahəsində aparılan islahatlar, vergi inzibatçılığının daim təkmilləşdirilməsi, işin günün tələbləri səviyyəsində qurulması vergi orqanlarında insan resurslarının idarə olunmasının təkmilləşdirilməsini zəruri edib. Hazırda nazirliyin bütün sahələrini əhatə edən tədris proqramı vergi orqanı əməkdaşlarının fasiləsiz təhsil almasını təmin edir. Vergilər Nazirliyinin Tədris Mərkəzində vergi əməkdaşları ilə yanaşı, bələdiyyələrə, vergi ödəyicilərinə, vergi dostlarına da müxtəlif istiqamətlər üzrə təlimlər keçirilir. Brifinqdə KİV nümayəndələrinin sualları cavablandırılıb.

# "AtaSığorta" ASC-nin "Paytaxt" filialı fəaliyyətə başlamışdır

"AtaSığorta" ASC sığorta xidmətlərinin daha əlçatan olması və müştərilərinə yüksək keyfiyyətli sığorta xidmətləri göstərmək məqsədi ilə yeni "Paytaxt" filialını istifadəyə vermişdir. Şirkətin "Paytaxt" filialı Bakı şəhəri, Nəsimi rayonu, Akademik Mirəli Qaşqay küçəsi 24 ünvanında fəaliyyət göstərməyə başlamışdır. Geniş əhali kütləsinə və sahibkarlara xidmət göstərməsi nəzərdə tutulan rahat filial binası müasir texnoloji avadanlıqlarla təmin edilmişdir.

Açılış mərasimində çıxış edən İdarə Heyətinin üzvü Ramil Abdullayev mərasim iştirakçılarını salamladı və qeyd etdi: "AtaSığorta hər zaman müştərilərinə daha da yaxın olmaqla onlara keyfiyyətli sığorta xidmətləri göstərməyə xüsusi diqqət yetirir. Yeni filial "AtaSığorta" ASC-nin strategiyasına uyğun olaraq biznesin inkişafına dəstək göstərməklə şirkətin funksiyalarını həyata keçirəcəkdir. Filialın rahat ünvanda yerləşməsi, ofisdə yaradılmış gözəl şərait müştərilərin rahatlığına və məmnunluğuna xidmət edəcəkdir".




"AtaHolding" şirkətlər qrupuna daxil olan "AtaSığorta" 2004-cü ildən sığorta sektorunda fəaliyyət göstərir. Şirkət 35 milyon manata yaxın aktivlərə malik olmaqla 28 sığorta növü - 24 könüllü və 4 icbari sığorta növü üzrə müştərilərə xidmətlər göstərir. AtaSığorta həmçinin təkrarsığorta fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malikdir. İcbari Sığorta Bürosunun təsisçisi və iştirakçısıdır. Bütövlükdə, "AtaSığorta" ASC-nin xidmət şəbəkəsinə 30-dan artıq filial, nümayəndəlik və ofislər daxildir.

# "Partnyor vergi ödəyicisi" statusunu əldə edən ödəyicilərə bildirişlər təqdim edilib

Fevralın 22-də Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentində nazirliyin rəhbər vəzifəli şəxslərinin şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri (partnyor ödəyicilər) ilə görüşü keçirilib.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu Departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, Prezident İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Sərəncamı vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsini, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunmasını nəzərdə tutur. Bildirilib ki, bu istiqamətdə görülən işlər çərçivəsində 2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minən "Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanunun tətbiqi, vergi inzibatçılığının təkmilləşdirilməsi və təşkilati struktur dəyişikliklərinin aparılması mühüm addımlar hesab edilə bilər.

Tədbirdə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas məqsədləri və istiqamətləri, struktur dəyişiklikləri, vergi ödəyicilərinə göstərilən xidmətlər və s. barədə görüş iştirakçılarına məlumat verilib. Qeyd olunub ki, məqsəd sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf uçotun qurulmasıdır.

Görüş iştirakçılarına vergi ödəyicilərinə xidmət sahəsində görülmüş işlər, ünvanlı vergi xidmətləri və "Yaşıl dəhliz prinsipi" ilə göstərilən xidmətlər barədə də məlumat verilib.

Sonra görüş iştirakçıları üçün "Şəffaf vergi partnyoluğu layihəsi və onun üstünlükləri" mövzusunda təqdimat keçirilib. Bildirilib ki, "Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin təşkili Qaydaları" vergi ödəyicilərinin müəyyən edilməsi meyarları, onlara göstəriləcək xidmətləri və digər məsələlər üzrə prosedurları tənzimləyir. Vergi ödəyiciləri "Partnyor vergi ödəyicisi statusu"na malik olmaq üçün bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər, ilk növbədə vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onlara verilən əməkhaqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar.

Təqdimatda vurğulanıb ki, partnyor ödəyicilərə ərazi məhdudiyyəti nəzərə alınmadan, "Yaşıl dəhliz prinsipi" əsasında xidmət göstəriləcək. Burada bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərin də təqdim edilməsi nəzərdə tutulur. Belə xidmətlərə videobağlantılar, Çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün dəyirmi masa, seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir. Koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyatı vergi strukturundan kuratorlar ayrılacaq. Kuratorlar partnyor ödəyicilərin müraciəti əsasında onlara ünvanlı xidmətlər göstərəcəklər. Partnyor vergi ödəyicilərinin siyahısı onların razılığı əsasında, mütəmadi olaraq açıqlanacaq. Bu, digər vergi ödəyiciləri üçün də nümunə olacaq və onlar intizamlı vergi ödəyicisi olmağın üstünlüklərini aydın şəkildə görə biləcəklər.

Sonra bir qrup vergi ödəyicisinə partnyor vergi ödəyicisi statusunu təsdiqləyən bildirişlər təqdim edilib və KİV nümayəndələrinin sualları cavablandırılıb.

# FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏDƏ BAKI NEFTİNİN MİSİLSİZ ROLU HAQQINDA KİTAB

## *(“Bakı nefti, qələbənin açarı: şərəfli keçmiş, işıqlı gələcək 1941-1945” kitabının təqdimatı)*






Fevralın 16-da Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, AMEA-nın həqiqi üzvü, akademik Ziyad Səmədzadənin rəhbərliyi ilə hazırlanmış “Bakı nefti, qələbənin açarı: şərəfli keçmiş, işıqlı gələcək. 1941-1945” adlı kitabın təqdimatı keçirilib.

Z.Səmədzadə kitabın Prezident İlham Əliyevin 23 fevral 2015-ci il tarixində imzaladığı “1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən ərsəyə gətirildiyini deyib. Bildirib ki, kitab geniş və əhatəli məzmunda malikdir: “Veteranlar bizim sərvətimizdir və şərəfimizdir”, “Bakı nefti dünya siyasətinin tərkib hissəsidir”, “Bakı neftinin qələbədə əvəzolunmaz rolu (faktlar və sənədlər)” və digər bölmələrdə Bakı əhalisinin və bütövlükdə, Azərbaycan xalqının 1941-1945-ci illər müharibəsində və faşizm üzərində qələbə çalınmasında danılmaz rolu işıqlandırılır.



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin direktoru Mais Bağırov deyib ki, Azərbaycan neftçilərinin, neft-kimya və maşınqayırma sənayesi işçilərinin, dəmiryolçularının, dəniz donanmasının, tibb işçilərinin əməyi kitabda öz əksini tapır.

Tədbirdə iştirak edən millət vəkilləri, ictimai və dövlət xadimləri kitabla bağlı fikirlərini bölüşdülər.

Qeyd edək ki, kitabın təqdimetmə mərasimi münasibətilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində sərgi də təşkil olunub. Sərginin “1941-1945-ci illər müharibə iştirakçılarına və veteranlara qayğı və diqqət”, “Böyük Vətən müharibəsi tariximizin yaddaşında. 1941-1945”, “Boyevoy Listok” adlı stendlərində ümummilli lider Heydər Əliyevin veteranlarla görüşləri, onlara göstərdiyi diqqət və qayğı fotoşəkillərdə və imzaladığı sənədlərdə öz əksini tapmışdır.

“Böyük Vətən müharibəsi tariximizin yaddaşında” adlı stenddə Bakı neftinin dünya siyasətində və Sovet dövlətinin bu müharibədə qələbə qazanmasında danılmaz rolu dövrün ayrı-ayrı siyasətçilərinin fikirlərində yer alır.

**Mərasimdəki çıxışlardan:**

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov:**



Akademik Ziyad Səmədzadənin ideya müəllifi olduğu Bakı nefti qələbənin açarı: şərəfli keçmiş, işıqlı gələcək kitabında 1941-45-ci illərdə Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin əldə edilməsində Bakı neftinin əvəzolunmaz rolu arxiv materialları əsasında çox əhatəli bir formada əks olunmuşdur. Kitabda həmin müharibədə vətən uğrunda qəhrəmanlıqla vuruşan həmyerlilərimizin, qələbənin əldə olunmasında çox böyük zəhməti olan elm adamlarının göstərdiyi fədakarlığa geniş yer verilmişdir. Bu da təsadüfi deyil, belə ki, kitabda həmin dövrdə Azərbaycanın SSRİ miqyasında xüsusi əhəmiyyətə malik olması haqqında ulu öndərimiz Heydər Əliyevin verdiyi qiymət də öz əksini tapmışdır. Heydər Əliyev bu barədə demişdir: “Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur. Bir daha deyirəm, həm övladlarımızın cəbhədəki qəhrəmanlıqları, həm də neft hasilatı cəbhəyə lazım olan bütün başqa ləvazimatların istehsalı sahəsində Azərbaycan xalqının xidmətləri misilsiz, əvəzsizdir”. Təqdimatını keçirdiyimiz kitabın da ana xəttini ümummilli liderimizin dediyi bu fikirlər təşkil edir və bu kitabın nəşr edilməsi bugünkü və gələcək nəsillər üçün böyük töhfədir. Çox əlamətdar haldır ki, kitab “Veteranlar bizim sərvətimiz və şərəfimizdir” adlı hissə ilə başlayır. Bu da onunla əlaqədardır ki, keçmişə düzgün qiymət verməsək, indinin qədrini bilmərik. Böyük Vətən müharibəsi veteranlarına münasibətdə Heydər Əliyev müstəqil Azərbaycanın ilk illərdəki rəhbərlərinə, sözün həqiqi mənasında, dərs keçdi. Ulu vətənpərvərin uzaqgörən siyasəti və şəxsi təşəbbüsü ilə 1993-cü ildə Naxçıvanda 9 May - Qələbə günü münasibətilə veteranlarla görüş keçirildi. Mən bu hadisənin şahidi olan bir adam kimi deyirəm: 1993-cü il mayın 7-də ulu öndər Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri idi. Onun dörd müavini var idi və bu müavinlərdən biri də mən idim. O, bizi çağırdı və dedi ki, Böyük Vətən müharibəsi ilə bağlı 9 May - Qələbə gününü keçirməliyik. Onun cəbhəçi müavinlərinin Qələbə gününün keçirilməsinə etirazlarına baxmayaraq, o, əsaslandırıcı sübutlarla cavab verdi və qətiyyətlə bildirdi ki, biz Qələbə bayramını mütləq keçirməliyik. Mayın 9-da H.Əliyev müharibə iştirakçılarını toplayaraq iclas keçirdi. İclas zamanı akademik Ziya Bünyadov qapını açdı və içəri daxil oldu, H.Əliyevlə görüşdü və H.Əliyev üzünü zaldakılara tutub dedi: “Tanıyırsınız, bax, bu, Sovet İttifaqı qəhrəmanı Ziya Bünyadovdur”. Ziya Bünyadovun gəlişi o məclisə xüsusi bir abu-hava gətirmişdi...

Mən bunları ona görə danışıram ki, bu, tarixdir, istəsək də, istəməsək də, bu tarixin qiymətini verməliyik. O tarixə qiymət verməsək, gələcəkdə də bizə qiymət verməzlər.

Kitabda Bakı neftinin dünya siyasətinin tərkib hissəsi olması elmi və praktiki tərəfdən əsaslandırılır. Eyni zamanda, Bakı neftinin bu müharibədə əvəzolunmaz rolu faktlar və sənədlərlə sübut olunur. Qeyd olunur ki, müharibənin aparıcı simalarından biri, Sovet İttifaqı marşalı Semyon Budyonnı Bakıda Mircəfər Bağırova etiraf edir ki, sizin hörmətiniz olmasa idi, kavaleriyanın köməkliyi ilə, çox çətin ki, uzağa gedə bilərdik. Hesab edirəm ki, bu etiraf Bakı neftinin müharibədəki roluna verilən ən yüksək qiymətdir. Çünki neft həm siyasət, həm də iqtisadiyyat deməkdir. Uzun illərin təcrübəsi sübut edir ki, nefti olan ölkələr dünya siyasətinə təsir göstərmək imkanı əldə etməklə iqtisadi inkişafa nail olurlar. 1941-45-ci illərdəki müharibədə də faşistlərin qarşısında duran əsas vəzifələrdən biri Bakı neftinə yiyələnmək idi. Ancaq onlar buna nail ola bilmədilər. Müstəqillik illərində biz öz neftimizin sahibi olduq.

Kitabın növbəti hissələrində Azərbaycan Respublikasının Prezidenti ulu öndər H.Əliyevin və hörmətli Prezidentimiz İlham Əliyev cənablarının müstəqillik illərində həyata keçirdikləri uğurlu neft strategiyası haqqında ətraflı bəhs olunur. Olduqca düzgün qeyd olunur ki, hal-hazırda doğma Azərbaycanımızın sosial sahədə qazandığı yüksək nəticələr və heç kimin təsiri altına düşmədən həyata keçirdiyi müstəqil siyasət neft amili ilə bağlıdır. Məhz bunun nəticəsində Azərbaycan müstəqillik dövründə özünün inkişaf səviyyəsinə görə regionun liderinə çevrilmiş və bundan sonra da lider olaraq qalmaq üçün bütün lazımi imkanlara malikdir.

Kitabda eləcə də müharibədə qələbənin açarı olan Bakı nefti və neft məhsullarının istehsalı və bu sahədə aparılan elmi tədqiqatlar haqqında məlumat verilir. Azərbaycan xalqı bir çox elmi ixtiralara imza atmış akademik Yusif Məmmədəliyev və daha neçə-neçə alimlərlə həmişə fəxr edə bilər. Kitabda müharibədə qəhrəmanlıqla vuruşmuş Azərbaycan oğulları haqqında, Sovet İttifaqı qəhrəmanı Ziya Bünyadov və başqaları barədə çox müfəssəl məlumatlar əks olunmuşdur. Kitabda oxucunun daha çox marağına səbəb olacaq cəhətlərindən biri də müharibədən sonrakı dövrdə keçmiş SSRİ-nin iqtisadi, siyasi və mənəvi həyatında unudulmaz izləri olan Azərbaycan vətəndaşları haqqında çox dəyərli materialların yer alması. Kitabda şərəfli keçmişimizlə yanaşı, işıqlı gələcəyimizi geniş əks etdirən materialların nəşr olunması təqdirəlayiqdir. Belə ki, bu materiallar ölkə prezidentinin ölkəmizin sosial-iqtisadi inkişafını təmin edən məsələlərə dair həyata keçirdiyi tədbirlərə həsr olunduğu üçün geniş oxucu kütləsi üçün böyük maraq doğurur. Göstərilənlər onu deməyə əsas verir ki, təqdimatını keçirdiyimiz kitab böyük şərəfli keçmişimiz və işıqlı gələcəyimizə həsr olunmuş sanballı əsərdir. Bu kitabın ərsəyə gəlməsində zəhməti olan hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Hörmətli həmkarım akademik Ziyad müəllimə dərin təşəkkürümü bildirir və ondan yeni-yeni əsərlər gözləyirəm.

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya, geofizika və yataqların işlənməsi üzrə birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə:**

Müharibəni görənlərdən biri də mən olmuşam. O vaxtlar mən uşaq idim və eşidirdim ki, almanlara layiqli cavab veriləcək. Hərçənd ki, bu cavab 4 ildən çox çəkdi. Bu cavabın verilməsində də Azərbaycan çox böyük rol oynadı. 600 mindən çox Azərbaycan oğlu bu müharibədə iştirak etdi. Arxa cəbhədə də həmin vaxtlar çox böyük işlər görüldü. Yadımdadır, həmin vaxtlar kolxozlarda insan-



lar necə ağır işlər görürdülər. İnsanlar hamısı bir ailə kimi birləşmişdilər.

Neftdən danışdıqda isə, neft Azərbaycanın, demək olar ki, hər zaman xilaskarı olub. 1900-cü ildə dünya neftinin yarıdan çoxunu Azərbaycan verirdi, 11 mln. tona qədər neft çıxarılırdı. Müharibə başlayan il Azərbaycanda 23,5 mln. ton neft hasil edilmişdi. Bu isə demək olar ki, Azərbaycanda müharibəyə qədər ən yüksək səviyyə idi. Təsadüfi deyil ki, müharibə başlayanda da, müharibə dövründə də bütün cəbhəni Azərbaycan nefti təmin edirdi. S.Budyonnı və G.Jukov Azərbaycan nefti olmasa idi, qələbənin mümkün olmadığını qeyd edirdilər. Lakin burada vacib məqam nefti çıxaran insanlar idi. O vaxtlar gənclərin hamısı müharibədə idi, yalnız qocalar və qadınlar qalmışdı. Onlar üçün nə gecə vardı, nə gündüz.

Azərbaycan müstəqillik qazandıqdan sonra çox çətin iqtisadi şəraitdə idi. Heydər Əliyev ölkəyə rəhbərlik edəndə ölkəni ayağa qaldırmaq üçün də tək çarə olan neftdən istifadə etdi. Neft sənayesinin inkişafı istiqamətində addımlar atıldı. Həmin vaxtlar bir çox yataqlar artıq kəşf edilmişdi, lakin orada işləmək üçün lazım olan texnikamız və maliyyə imkanlarımız yox idi. Ölkəyə xarici şirkətlərin dəvət olunmasına ehtiyac vardı. Heydər Əliyev cənabları düzgün strategiya seçdi və ölkəyə xarici şirkətləri cəlb etdi. Bu siyasətin nəticələri isə göz qabağındadır.

Hazırda bütün sahələrdə inkişaf, canlanma Azərbaycan neftçilərinin çox böyük rolunu göstərir. Azərbaycanın, onun neftçilərinin həmin ağır illərdəki əziyyətli əməyi, fədakarlıqla gördüyü işlər məhz akademik Ziyad Səmədzadənin bu elmi əsərində öz əksini tapıb. Bu kitabı oxuyanda da həmin şəxslər, eyni zamanda, o dövr haqqında müəyyən təsəvvürlər formalaşacaq. Bu baxımdan bu əsər bizim üçün çox dəyərlidir.

**Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov:**



Akademik Ziyad Səmədzadənin müstəqil Azərbaycan tarixində XX əsrdə baş vermiş hadisələr, Azərbaycanın dünya hadisələrinə münasibəti, xüsusilə neftimizin bu tarixi hadisələrin gedişatında rolundan bəhs edən bu kitabı Azərbaycan xalqının böyük qəhrəmanlıq epopeyasıdır. Azərbaycan neftinin qələbəsi təkcə Sovet İttifaqının, Azərbaycan xalqının qələbəsi deyil, bu, həm də bəşəriyyətin qələbəsidir.

Ziyad müəllim bu kitab üzərində işləyərkən tarixi sənədləri araşdırıb ortaya qoymaqla böyük şücaət göstərib. Bu şücaət ondan ibarətdir ki, kitab gənc nəslə, gələcək nəsillərə çatdırılacaq. Belə kitabların yazılmasına böyük ehtiyac var. Nə yaxşı ki, bu kitab 2 dildə nəşr edilib. Ötən il biz onun rus dilindəki variantını müzakirə etdik, çox sevindik. İndi onun Azərbaycan dilində işıq üzü görməsi çox əlamətdar hadisədir. Bu kitab gələcək nəsillərə xatirə kimi qalacaq.

Mən bir məsələni də nəzərinizə çatdırmaq istərdim. 1969-cu ildə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndə mən par-

tiya komitəsində çalışırdım. Ölkəmizə gələn qonaqlar həmişə irad tuturdular ki, nəyə görə 15 müttəfiq respublika arasında Azərbaycan həmişə 12, 13, 14-cü yeri tutur? Ulu öndər Azərbaycanda yenidən hakimiyyətə gəldikdən sonra həm kənd təsərrüfatında, həm sənayedə, həm də digər sahələrdə irəliləyişlər müşahidə olunmağa başladı. O, Azərbaycan neftinin insanlara xidmətinin əsasını qoydu. ölkədə böyük meliorasiya işlərinin aparılmasına şərait yaratdı, kənd təsərrüfatı inkişaf etdi, nəhəng suvarma sistemləri yaradıldı. Bakıda mikrorayonlar salındı, o, əsl Azərbaycan şəhərinə, paytaxta çevrildi. Ulu öndər neftdən gələn gəlirlərin ümumittifaq büdcəsinə gedən böyük hissəsini alıb, Azərbaycanın şəhər və kəndlərinin abadlaşdırılmasına, sənayeyə, kənd təsərrüfatına yönəltdi. Bu, böyük məharət idi. Ulu öndər o zaman buna nail oldu: neft o vaxtdan dar çərçivədə deyil, beynəlxalq miqyasda Azərbaycan vətəndaşına, Azərbaycan xalqına xidmət etməyə başladı. Neft sahəsində çalışan insanların sayəsində Bakı indi dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu dünyanın bütün ölkələrindən Bakıya gələn turistlər də heyranlıqla etiraf edirlər. Biz Bakı ilə fəxr edirik.

Ziyad müəllim, həqiqətən, zəhmətkeş insandır, bütün sahələrdə gənclik fədakarlığı ilə çalışır. Mən bu kitabın ərsəyə gəlməsi münasibətilə onu ürəkdən təbrik edirəm. Biz Ziyad müəllimə uğurlar arzulayır və yeni-yeni kitablar gözləyirik.

**Millət vəkili, professor Fəzail İbrahimli:**



Mən burada kifayət qədər gərgin əməyin, böyük zəhmətin bəhrəsi olan bu kitabın məziyyətlərindən bəzilərinin üzərində dayanmaq istəyirəm. İlk növbədə mövzu seçimini qeyd etmək lazımdır. Müəllif çox aktual mövzu seçib. Bu gün bu kitab bir ideoloji cəbhədə dayanan, qələmini süngüyə çevirən bir akademikin yazısıdır, məhsuludur. Biz atəşkəs rejimində yaşasaq da, ideoloji müharibə davam edir. Azərbaycan vətəndaşı qarşısında hər il bu ideoloji müharibədə iştirak etmək vəzifəsi durur. Bu vəzifənin öhdəsindən gəlmək nöqteyi-nəzərindən “Bakı nefti qələbənin açarı: şərəfli keçmiş, işıqlı gələcək 1941-1945” kitabı uğurludur.

Azərbaycanın geosiyasi vəziyyəti, dünya dövlətlərinin Azərbaycana münasibəti, marağı, bu maraqların altında gizlənmiş niyyətlərinin ünvanı Bakı neftidir.

Dünyanın bütün siyasi xəritələrində Bakı, Bakı nefti var. Kitaba nəzər yetirdikdə, onun iqtisadi məsələlərdən danışdığı görünür. Müəllif gücü, təfəkkürü, təhlil təşəbbüsü sayəsində neftin iqtisadi müstəvidən siyasi müstəviyə keçməsini çox düzgün araşdırıb. Bu kitab bu günə çağırışdır, sanki deyir: “Ey Azərbaycan vətəndaşı, indi sənin körpən öz körpəliyini yaşayır, gəncin öz gəncliyini yaşayır, ağsaqqalın ahıllıq dövrünü yaşayır. Sən bu müstəqilliyin qədrini bil”!

Kitabın giriş hissəsində Ziyad müəllim yazır: “Mən bu fikirdəyəm ki, Vətənin o dar günlərində öz rəşadətli əməyi ilə qəhrəmanlıq nümunələri göstərən Bakı neftçilərinin xatirəsini fundamental tədqiqatlarla, sanballı kitablarla əbədiləşdirmək olduqca vacibdir. Onlar bu haqqı canları, qanları bahasına qazanıblar.

O gün mütləq gələcək, bu kitab işıq üzü görəcək!”

Ziyad müəllim, təbrik edirəm, sən arzuna çatmısan. Kitabın çap olunub, onların ruhu qarşısında öz borcunu vermisən! Tək onların yox, Vətən yolunda qurban gedən Yanvar şəhidlərinin, Xocalı qurbanlarının, Vətən yolunda qurban gedən bütün şəhidlərin qarşısında öz borcunu vermisən!

**Polkovnik Cəlil Xəlilov:**

Ziyad müəllimi təbrik edirəm. Çox dəyərli bir əsər ortaya qoyub. Bu vəsaiti hər bir Azərbaycan gənci oxumalıdır, Azər-



baycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi qəhrəmanlığın mahiyyətini anlamalıdır. Azərbaycan xalqı müharibədə təkcə insan resursları ilə iştirak etməyib. Məhz 123 növ silah-sursat Bakıda hazırlanıb cəbhəyə göndərilib, onlarla hospitallar fəaliyyət göstərib. Müharibədə neftin 70%-dən çoxunu Azərbaycan təmin edib. Doğrudan da, böyük rəqəmdir. Mən Ziyad müəllimin kitabının rusca versiyasını Moskvaya aparmışdım. Orada Veteranlar Təşkilatının tədbiri idi. Mən şəxsən kitabı general Moiseyevə təqdim etdim və o, çox sevindi, Azərbaycan haqqında dəyərli fikirlər səsləndirdi. 416-cı Taqanroq divizisiyasının Heydər Əliyevlə birlikdə açılışında iştirakı barədə geniş danışdı.

Yüzlərə azərbaycanlı Böyük Vətən müharibəsində orden və medallarla təltif edilmiş, həmçinin Sovet İttifaqı Qəhrəmanı adlarına layiq görülmüşdür. Bu gün onların hər birinin həyat yolu Azərbaycan gəncləri üçün nümunədir. Qarabağ müharibəsi həllini tapmayınca daha geniş və aktiv formalardan istifadə edərək Böyük Vətən müharibəsində Azərbaycan xalqının qəhrəmanlığı barədə danışmalıyıq, tarixi məlumatları axtarıb tapmalıyıq, gənclərimizə çatdırmalıyıq. Bu sahədə Ziyad müəllim böyük işlər görüb. Bu cür tədbirlərlə biz gənclərdə hərbi vətənpərvərlik ruhunu yüksəltməliyik, onları Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi işinə hazırlamalıyıq.

Ermənilər müharibə dövründə Böyük Vətən müharibəsində minlərlə Sovet əsgərinin həlak olmasında yaxından iştirak etmişlər. Orduların say tərkibini, onların dislokasiya yerlərini, əsgərlərin yerlərini müəyyən etməkdə faşistləri istiqamətləndirirdilər. Amma müharibədən sonra Stalinin tapşırığı ilə onların bir neçəsi hərbi tribunalın əmri ilə 25, 28, 30 il müddətinə həbs edildilər. İndi isə ermənilər həmin qəsbkarları milli qəhrəman kimi təqdim etməyə çalışırlar. Onlar bu haqda Moskvada kino da çəkmək istəyirdilər. Bizim veteranlar bunun qarşısını aldılar. Amma onlar Njdeyə abidə qoya bildilər. Biz bunun üçün bütün dünya təşkilatlarına veteranlar adından müraciətlər ünvanladıq. Şəxsən Prezident İlham Əliyev veteranlara öz təşəkkürünü bildirdi. Mən bir daha bu cür dəyərli əsərə görə başda akademik Ziyad müəllim olmaqla kitabın bütün redaksiya heyətinə, bu işdə zəhməti olan hər kəsə təşəkkürümü bildirirəm.



**Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının 4-cü sədri, millət vəkili Fuad Muradov:** Mən inanıram ki, müstəqil Azərbaycan Respublikasında hər zaman olduğu kimi, Azərbaycan gənclərinin də xüsusi rolu var. Bu şəraiti bizim üçün ulu öndər Heydər Əliyev yaradıb. Bu gün də cənab prezident bu siyasəti uğurla davam etdirir. İnanıram ki, bu tədbirin də mahiyyəti bizim gəncliyə olan mesajlarımızı çatdırmaqdır. Ümummilli lider Heydər Əliyev demişdir ki, Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir. Bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün bu, vacibdir. Bütün dünyada qədim neft diyarı kimi tanınan Azərbaycanda neftin sənaye üsulu ilə hasilatına hələ XIX əsrin ikinci yarısında başlanılmışdır. Azərbaycanda neft hasilatı haqqında məlumatlar erkən orta əsr alim və səyyahların əsərlərində dəfələrlə qeyd edilmişdir. Bu qeyri-adi məhsulun böyük dəyərlər kəsb etdiyi hamıya bəllidir. Lakin o dövrlər neft ancaq məişətdə yanacaq, tibbi və hərbi məqsədlər üçün istifadə olunurdu. 1848-ci ildə Bakıda Bibiheybət yatağında qazılmış quyudan vurmuş neft fontanı Azərbaycanda qara qızılın sənaye üsulu ilə çıxarılmasına təkan verdi. Təbii ki, bunları siz hamınız çox yaxşı bilirsiniz.

XX əsrin Rotşildləri, Nobelləri və bu qəbildən olan digər iş adamları məhz ilk investisiyalarını Azərbaycana qoymuşdular. Bəzi investisiyalarla bu gün də gördüyümüz binalar, gözəl evlər qurulur və bəlkə də onların qohumları, yaxınları öz ölkələrinə Nobel mükafatı gələndə, heç bilmirlər ki, bu mükafatların əsas mənbəyi Azərbaycanla, Bakı ilə bağlı olmuşdur. Bu, çox vacib məsələdir və kitabda da vurğulanıb. Lakin Bakı neftinin önəmi öz kuliminasiya nöqtəsinə İkinci Dünya müharibəsində çatdı. İkinci Dünya müharibəsi XX əsrdə bəşəriyyətin üzləşdiyi ən ağır və dəhşətli dövr olmuşdur. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq, qəhrəmanlıq öz məntiqi nəticəsini verdi. Bu müharibədə Bakı neftinin rolu çox böyükdür. O zaman Hitler üçün hazırlanmış tortun üzərində də Bakı təsvir olunmuşdu. Bakını, Azərbaycanı zaman-zaman kimlərsə yemək istəyib, əzmimizi sındırmağa çalışıb, amma bu, heç vaxt mümkün olmayıb. Məhz kitabda da Azərbaycan neftinin o vaxtkı rolu xüsusi vurğulanıb.

Bu gün biz müstəqilik və istənilən mövzuda müstəqil fikrimizi yürüdə bilərik. Artıq qonşularımız da başa düşməlidir ki, biz nə yemək üçün varıq, nə də bizi dövlət əleyhinə hərəkətlərə sövq edə bilərlər. Mən inanıram ki, Hitlerin o vaxt Azərbaycan haqqında düzgün fikri və düşüncəsi olsa idi, yəqin ki, bu gün dünyada onun mövqeyi də fərqli olardı. Amma onun tamahkarlıqdan doğan “hamısı mənimdir” istəyi, təbii ki, heç vaxt öz bəhrəsini verə bilməzdi. Biz neftdən danışanda ulu öndər Heydər Əliyevə tez-tez qayıtmalıyıq. Məhz ulu öndər sayəsində “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycan nefti ikinci intibah dövrünü yaşamağa başladı. Bu gün böyük dövlətlər Bakı-Tbilisi-Ceyhan kəmərindən başlayan neft siyasətini çox gözəl anlayırlar. Artıq neftimizin gücünü bilirlər. Bu gün Azərbaycanın həyata keçirdiyi siyasət böyük dövlətləri, müxtəlif siyasi paytaxtları birləşdirir. Brüsseldən başlayaraq Şərqə tərəf gedən bu yolda Azərbaycan neftinin xüsusi rolu var.

Hazırda cənab prezident tərəfindən həyata keçirilən siyasət dünya düzəni üçün çox vacibdir. Bu yaxınlarda cənab prezident xüsusi olaraq Cənub qaz dəhlizi ilə bağlı çox mühüm danışıqlar apardı. Bəlkə də bəziləri üçün bu, adi məsələdir. Lakin bu işin içində olanlar yaxşı bilirlər ki, bu, tarixi bir yanaşmadır. Bəzi dövlətlərə bu məsələ xoş gəlməyə də bilər. Çünki bəzi böyük korporasiyalar düşünürlər ki, onların fikirləri mütləq surətdə nəzərə alınmalıdır. Təbii ki, bu, siyasətdir. Hər zaman siyasət olub, bundan sonra da olacaq. Düşünürəm ki, Ziyad müəllimin əsəri keçmişi görərək gələcəyi qurmaq üçün çox vacibdir. İnanıram ki, bu əsərin müxtəlif dillərə tərcüməsi də olacaq. Bu kitabın Azərbaycan gəncləri üçün də çox böyük əhəmiyyəti var. Çünki bu kitabdakı şəxsiyyətləri hər bir Azərbaycan gənci tanımalı, faktları bilməli, tarixdə baş vermiş qanlı hadisələri unutmamalıdır.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə:**

70 ildən çoxdur ki, Qələbə günü Böyük Vətən müharibəsi cəbhələrində ölüm-dirim savaşından zəfərlə qalib çıxmış döyüşçülər nəslini qırılmaz tellərlə indiki nəslə bağlayır.

İllər su kimi axır. Ötüb keçən illər qəlbimizin dərinliklərində minnətdarlıq, məhəbbət dolu sözlərlə qalaq-qalaq kitablara köçürülsə də, bizim nəsillər



bəşər tarixinin ən qanlı, ən dəhşətli müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları qarşısında daim borclu qalacaq.

Mən müharibənin dəhşətlərini yaşamış nəslə mənsubam. İndi bizi yaşlı nəsil adlandırırlar. Müharibə yer üzünün bütün uşaqlarına məxsus olan o gözəl, qayğısız, şirin məsum illəri, o illərin dadını, xoşbəxtliyini bizim nəslin əlindən aldı. Bu itkinin acısı bütün uşaqlıq xatirələrinin tən ortasından gəlib keçir. Ağrısı, göynərtisi hələ də qalır. Bundan sonra da qalacaq.

Həmin xatirələrdə ailəmizin, qonşularımızın, elə özümüzün də qeyri-ixtiyari qorxu, həyəcanla dolu həyatı var idi.

Müharibə uşaqları tez böyüyür. Uşaq olsam da, o vaxtları, Qafqaz dağlarının o üzündə qana susamış düşmənlə gedən şiddətli, amansız döyüşləri, böyüklər kimi, aydın və dəqiq təsəvvür edirdim.

Təpədən-dırnağa qədər silahlanmış düşmən qarşısında bizim qoşunlar necə dayanacaqlar, geri çəkilməyəcəklər ki?!

Bu sualların həyəcanı, nigaranlığı ilə cəbhədən gələn xəbərləri gözləyirdik. Axı, hər birimizin həyatı bundan asılı idi!

Vətənpərvərlik anlayışının yüksək mənasını, məhz o vaxtları da qonşularımıza, qohumlarımıza, dostlarıma baxaraq, tam aydınlığı ilə başa düşdüm.

Onlardan heç biri məğlubiyyət sözünü ağlına belə gətirməzdi. Düşməndən bir qırıq aman gözləyən də yox idi. Qandan-qadadan başqa.

Müharibənin dəhşətlərini tam təsəvvürə gətirə bilməyən biz uşaqlar onu bütün çətinlikləri, xüsusən gətirdiyi aclığa görə lənətləyirdik.

Bu gün mən həddən artıq sevinirəm, özümü həddən çox xoşbəxt hiss edirəm ki, Azərbaycan elminin, Azərbaycan ziyalılarının, Azərbaycanın dövlət xadimlərinin, Azərbaycan gəncliyinin ən layiqli nümayəndələri təqdimat mərasimində iştirak edirlər. Mən Mais müəllimə təşəkkür edirəm ki, biz burada on minə yaxın sənədi toplamışıq. Ona görə də bu kitabın arxa səhifəsində mən belə bir fikir yazdım: Böyük Vətən müharibəsi tarixin yaddaşında. Bu sahədə bizdən əvvəl də ziyalılarımız çox böyük işlər görüblər. Mais müəllim mənə şərait yaratdı ki, 5 il ərzində 1941-45-ci illərin Vətən müharibəsi haqqında nə qədər yazı gedibsə, hamısını bir-bir toplayıb çap edək. Millətin tarixini yazmaq, yaşatmaq çox böyük xoşbəxtlikdir. Hamınıza təşəkkür edirəm.

Böyük Vətən müharibəsi illərində istər dövlət rəhbərləri, istər Azərbaycanın neftçiləri nə qədər əziyyət çəkiblər. Xoşbəxt müəllim qeyd etdiyi kimi, Azərbaycan dünya neft sənayesinin ən nəhənglərindən biridir. Neft sənayesinin, Azneftin, büronun neft sənayesi ilə əlaqədar nə qədər protokolu varsa, onları mən əlyazması ilə özüm üçün köçürmüşəm. Bəlkə də toplasaq, 2000-3000 səhifə edər. Oxuyanda görürsən ki, hər bir mədən üzrə nə qədər çətinliklər olub. Yəni, çox zəngin və şərəfli tariximiz var. Akademik Vasilevskinin “Экономика военного времени” adlı kitabı bütün dünyada məşhur idi. Bizim Azərbaycan iqtisadiyyatına dair ölkə arxivlərində olan materiallar da kifayət qədər zəngindir. Azərbaycandan müharibəyə gedib həlak olan azərbaycanlıların sayı 300 mindən çox olub. Avropa ölkələrində ölən hərbi qulluqçuların sayı Azərbaycandan olan ölənlərin sayından dəfələrlə az olub. Bu, tarixi bir faktdır. Özü də bu, beynəlxalq mətbuatda yer almış bir fakt. Biz bu sənədləri, faktları ona görə olduğu kimi veririk ki, gənc nəsil bunları bilsin və unutmasın. Moskvada da bu kitabın təqdimatı keçiriləndə, qətiyyətlə bildirdik ki, Bakı nefti olmasa idi, faşizm üzərində qələbə də olmazdı. Müharibə zamanı Almaniyanın Avropada neft sənayesi üzrə yeganə müttəfiqi Rumıniya idi. Amma Rumıniya neftinin həcmi Azərbaycandakından 5 dəfə aşağı olmuşdur. Yəni, faktlar kifayət qədər var, təhlillər aparılıb və sübut olunub. Biz Böyük Vətən müharibəsi ilə əlaqədar olaraq bütün rayonlar üzrə görülən işləri təhlil etmişik.

Mən sevinirəm ki, bu kitab işıq üzü gördü. Mən bu işin ərsəyə gəlməsində ilk növbədə Mais qardaşıma və onun rəhbərlik etdiyi kollektivin əməkdaşlarına minnətdarlığımı bildirirəm. Burada çıxş və iştirak edənlərə - Fəzail müəllimə, Eldar müəllimə, Fəttah müəllimə, dostlarıma, Xoşbəxt müəllimə, Cəmil müəllimə təşəkkürümü çatdırıram. Onlar dəyərli faktları qeyd etdilər. Həqiqətən, bu faktları qeyd etmək lazım idi. Xüsusilə müharibənin gedişində ikinci cəbhənin açılması, cəbhənin ərzaqla təminatı, Amerikadan gələn silahın, sursatın 27 faizinin nəqliyyatla Azərbaycandan keçməsi və başqa bu kimi sənədlərdə, doğrudan da, böyük məna var və bu sənədlərdən xalqımız xəbərdar olmalı idi. Biz buna çox çalışdıq. Mən bu işdə əməyi olan hər bir kəsə, xüsusilə, arxiv materiallarının işlənib hazırlanmasında, redaktə olunmasında və kitabın maraqlı tərtibatında mənimlə bərabər böyük zəhməti olan “İqtisadiyyat” qəzetinin kollektivinə təşəkkürümü bildirirəm. Allah sizi qorusun, Allah bizim ağsaqqalları qorusun...

**“İQTİSADİYYAT“**

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Sənaye parkları sahibkarlığa dəstək sisteminin elementləri kimi

## (Sumqayıt Kimya Sənaye Parkının timsalında)

Müasir şəraitdə ölkə iqtisadiyyatının modernləşdirilməsi strategiyasının həyata keçirilməsi üçün ərazilərdə istehsalın inkişafına investisiyaların cəlb edilməsi zəruridir. İnvestorlar üçün bu cür layihələrin cəlbediciliyinin yüksəldilməsi istiqamətlərindən biri sənaye parklarının formalaşması və inkişafıdır. Belə ki, bu sənaye parkları rahat iş mühiti yaradır və yeni rəqabətqabiliyyətli istehsalların təşkili üçün zəruri şəraiti təmin edirlər.

Azərbaycanda son dövrlərdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi istiqamətində çox mühüm və ardıcıl layihələr həyata keçirilmişdir. Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması ölkədə sənaye sahələrinin və iqtisadiyyatın tarazlı inkişafının təmin edilməsinə, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması, həmçinin ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmin edilməsi, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Hazırda bu istiqamətdə işlər davam etdirilir, beynəlxalq təcrübə daim öyrənilir və müvafiq normativ-hüquqi sənədlər hazırlanır.

**Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli 865 nömrəli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir. Adıçəkilən Fərmanla müəyyən edilmişdir ki, sənaye parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir.**

Ölkədə sənaye parklarının yaradılması bir sıra dövlət proqramlarında, o cümlədən **Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.** Bununla bağlı xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Xarici ədəbiyyatda sənaye parkına verilən tərifdən də göründüyü kimi, bu, sahəsi 20 000 kv metrdən az olmayan daşınmaz əmlak və infrastruktura malik olan və vahid operator tərəfindən idarə olunan obyektlər (sənaye parkının fəaliyyətini təmin edən torpaq sahələri, inzibati, istehsal, anbar və digər binalar) kompleksidir. Sənaye parkının yaradılması məqsədləri hər hansı ərazinin investisiya cəlbediciliyinin yüksəldilməsi və parkda biznesin inkişafının formalaşmasıdır. Daha ətraflı desək, bu məqsədlər aşağıdakılardan ibarətdir:

– *innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi;*

– *iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi;*

– *ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması;*

– *əməkqabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması.*

Ölkəmizdə uğurla həyata keçirilən sənayeləşmə siyasəti və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 dekabr 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın icrasının nəticəsidir ki, Dövlət Proqramı çərçivəsində sənaye parkları və məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülmüşdür. Belə ki, Dövlət Proqramı ölkədə sənayeləşmə prosesinin sürətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir və hazırda uğurla icra olunur.

Dövlət Proqramında qeyd olunan məqsədlərə nail olmaq üçün mövcud istehsal sahələrinin genişləndirilməsi və yeni sahələrin yaradılması, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın inkişaf etdirilməsi, sənaye zonalarının və klasterlərinin yaradılması və s. nəzərdə tutulur.

Qeyri-neft sənayesinin davamlı inkişafında, sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılmasında sənaye parkları və sənaye zonaları mühüm əhəmiyyət kəsb edir. Müasir infrastruktura malik, qabaqcıl texnika və texnologiyalar tətbiq olunmaqla yaradılan Sumqayıt, Balaxanı, Mingəçevir və Qaradağ sənaye parkları, Neftçala sənaye məhəlləsi rəqabətqabiliyyətli və idxalı əvəz edən məhsul istehsalının genişləndirilməsi, ixrac qabiliyyətinin artırılması, investisiyaların və müasir texnologiyaların cəlb olunması baxımından da önəmlidir. Sənaye parklarına və məhəllələrinə sahibkarlar tərəfindən böyük maraq göstərilir. Təkcə Sumqayıt Kimya Sənaye Parkında rezidentlər tərəfindən istehsal müəssisələrinin qurulmasına 1 mlrd. manatdan çox investisiya yatırılmışdır. Qaradağ Sənaye Parkının rezidenti olan "Bakı Gəmiqayırma Zavodu" MMC tərəfindən müqavilə dəyəri 40 mln. ABŞ dolları olan sifariş əsasında yarımdalma qazma qurğusunun pantonlarının tikintisi başa çatdırılaraq təhvil verilib. Ölkəmizdə "yaşıl biznes"in inkişafında əhəmiyyətli olan Balaxanı Sənaye Parkına rezidentlər tərəfindən ilkin mərhələdə 10 mln. manatdan artıq investisiya yatırılmışdır. Neftçala Sənaye Məhəlləsində infrastruktur şəbəkəsi yaradılmışdır. Ölkənin digər rayonlarında da sənaye məhəllələrinin yaradılması istiqamətində müvafiq tədbirlər görülür.



### Cənubi Qafqazın ilk kimya sənaye parkı

Azərbaycanda innovativ sənaye quruculuğunun irimiqyaslı layihəsi kimi Sumqayıt Kimya Sənaye Parkında investorlar üçün ən münasib işgüzar şərait mövcuddur. Bu müəssisə ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə yaradılmışdır. Sumqayıt Kimya Sənaye Parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur. Sumqayıt Kimya Sənaye Parkının ərazisi 295,62 hektar təşkil edir.

Parkın sənaye zonasında kimya sənayesi, tikinti sənayesi və digər sənaye sahələri üzrə müəssisələrin – parkın rezidentlərinin fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradılır. Burada inzibati bina, Sərgi-Konfrans Kompleksi, Peşə Təhsil Mərkəzi, laboratoriya binası, emalatxanalar, Uşaq Baxım Mərkəzi, açıq və qapalı idman meydançaları, Sağlamlıq Mərkəzi, Yataqxana Kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər fəaliyyət göstərəcəkdir.

Hazırda parka yeni rezidentlərin cəlb edilməsi istiqamətində potensial investorlarla danışıqlar aparılır. Belə ki, əczaçılıq məhsulları, texniki qazların istehsalı, kimyəvi maddələrin istehsalı sahələri üzrə fəaliyyət göstərən şirkətlər parkda yer almaq marağında olduqlarını bildirirlər.

Sumqayıt Kimya Sənaye Parkının artıq 9 rezidenti var və bu rezidentlər tərəfindən sənaye parkına 1,1 milyard dollardan çox investisiyanın qoyulması, həmçinin 2200 iş yerinin yaradılması gözlənilir. Bunlar "Azertexnolayn" MMC, "SOCAR Polymer" MMC, "Azerbaijan Fibro Cement" MMC, "AzerFloat" QSC, "Baku Non Ferrous and Foundry Company" MMC, "SİKA" MMC, "MST Engineering" MMC, "Aqrokimya Azərbaycan" MMC və "Alco Lubricant Company" MMC-dir.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktor müavini Zaur Məmmədovun sözlərinə görə, "Sumqayıt Kimya Sənaye Parkı 10-a yaxın şirkətdən təklif alıb. Bu təkliflər yalnız Sumqayıt Kimya Sənaye Parkı üçün deyil, ümumilikdə Azərbaycan iqtisadiyyatı üçün vacibdir. İlk növbədə əczaçılıq sahəsini qeyd etmək istəyirəm. Bilirsiniz ki, artıq İranın "Darou Pakhsh" şirkəti ilə Anlaşma Memorandumu imzalanıb. Memorandumun şərtlərinə əsasən, Sumqayıt Kimya Sənaye Parkında istehsalat müəssisəsi yaradılacaq. Bundan başqa, əczaçılıqla məşğul olan digər şirkətlər də Sumqayıt Kimya Sənaye Parkına maraq göstərir. Hazırda danışıqlar aparılır və biz ümid edirik ki, çox yaxın zamanda daha bir rezidentimizi qəbul edəcəyik. Eyni zamanda, aqrar sahə çox mühüm bir istiqamətdir. Biz müxtəlif çeşidli gübrələrin istehsalı ilə məşğul olan şirkətlərdən təkliflər almışıq. Hazırda təkliflər qiymətləndirilir".

2017-ci il yanvarın 25-də Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncamla ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, sənayeləşmənin prioritet istiqamətləri üzrə özəl investisiya fəaliyyətinin təşviqi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Nazirlər Kabinetinə İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Sumqayıt Şəhər İcra Hakimiyyəti ilə birlikdə Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti üçün Sumqayıt şəhərinin Bakı-Quba yolunun 37-ci kilometrliyində yerləşən 170,75 hektar torpaq sahəsinin qanunvericiliyə uyğun olaraq "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin daimi istifadəsinə verilməsinin təmin edilməsi ilə bağlı üç ay müddətində tədbirlər görmək və bu barədə Azərbaycan Prezidentinə məlumat vermək, bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Əminik ki, dövlətimizin başçısının müvafiq fərmanları ilə texnoparklarda müasir istehsal sahələrinin istifadəyə verilməsi ölkə iqtisadiyyatının gücləndirilməsinə, rəqabətə davamlı və keyfiyyətli məhsulların istehsal edilməsinə geniş imkanlar açacaqdır. Belə texnoparklar həm də rəqabətədavamlı məhsul istehsal etməklə Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə mühüm töhfə verəcəkdir.

**Yeganə MƏMMƏDOVA**

# UNEC İslam Dünyası Universitetləri Federasiyasının İdarə Heyətinin üzvü seçilib

Mərakeş Krallığının paytaxtı Rabat şəhərində İslam Dünyası Universitetləri Federasiyasının (Federation of the Universities of the Islamic World – WORLD) 7-ci Baş Konfransı keçirilib. İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) mənzil qərargahında keçirilən tədbirdə UNEC-i Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor, dosent Şahin Bayramov təmsil edib.

Konfransda ISESCO-nun Baş direktoru, eyni zamanda, FUIW-in baş katibi Dr.Əbdüləziz Osman əl-Tuveycri Federasiyanın 2014-2016-cı illər ərzindəki fəaliyyətinə dair geniş məlumat verib. O, 345 ali təhsil müəssisəsinin üzv olduğu Federasiyanın İslam dünyası ölkələri arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edən əlaqələndirmə funksiyasını həyata keçirdiyini bildirib. Fərqli ali təhsil sistemlərini təmsil edən universitetlər arasında əlaqələrin inkişafında FUIW-in müstəsna rol oynadığını diqqətə çatdıran digər çıxışçılar Federasiyanın fəaliyyətinin səmərəliliyinin artırılmasına dair təkliflər də irəli sürüblər.

İki gün davam edən tədbirdə aktiv iştirak edən Ş.Bayramov İslam sivilizasiyasının əsas mərkəzlərdən biri olan Azərbaycan Respublikasında 2017-ci ilin ölkə başçısının müvafiq sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan edilməsini və 2017-ci ilin mayında Bakı şəhərinin IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyini diqqətə çatdırıb. O, tədbir iştirakçılarına İslam dəyərlərinin qorunması və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində Azərbaycanda həyata keçirilən çoxsaylı tədbirlər haqqında məlumat verib. Konfransda Federasiya üzvləri arasında təcrübə mübadiləsinin genişləndirilməsi, İslam dünyası universitetlərinin fəaliyyətinin qiymətləndirilməsi mexanizminin hazırlanması, İslam dünyasını əhatə edən elm, texnologiya və innovasiya platformasının yaradılması, ali təhsil müəssisələrinin yeni maliyyə mənbələrinə çıxış əldə etməsi və digər bu kimi mövzularda geniş fikir mübadiləsi aparılıb.

Təşkilati məsələlərin də müzakirə olunduğu Konfransda FUIW-in İdarə Heyətinin 2017-2019-cu illər üçün yeni tərkibi seçilib. 345 üzv arasından cəmi 15 universitetin daxil olduğu İdarə Heyətinə UNEC də seçilib.

FUIW-in 7-ci Baş Konfransında Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri cənab Tarik Əliyev də iştirak edib.

# Azərbaycan iqtisadiyyatı artmağa başladı



2017-ci ilin yanvar ayında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 5233,1 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,8 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

Əlavə dəyərin 47,7 faizi sənayedə, 9,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,8 faizi tikinti, 2,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə, 15,9 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 6,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 539,8 manata bərabər olmuşdur.

# 2016-da qiymətli kağızlar bazarı 33% artıb

2016-cı il ərzində ölkənin qiymətli kağızlar bazarı artım nümayiş etdirmiş, pozitiv kəmiyyət göstəriciləri ilə yanaşı, önəmli keyfiyyət dəyişiklikləri qeydə alınmışdır. Maliyyə Bazarlarına Nəzarət Palatasının yaydığı məlumata görə, 2016-cı ilin yanvar-dekabr ayları ərzində qiymətli kağızlar bazarı 2015-ci il ilə müqayisədə 33% artaraq 14,026 milyard manat təşkil etmişdir. Keçən il ərzində qiymətli kağızların ilkin bazarı 4,5 dəfə artaraq 8,669 milyard manata çatmışdır. Ümumilikdə, korporativ qiymətli kağızlar bazarı 2 dəfədən, dövlət qiymətli kağızlar bazarı isə 40 dəfədən çox artmışdır.




ELAN

Quliyeva Səadət Namiq qızının adına verilmə tarixi 02.07.2015-ci il olan,
115 04 66 44 nömrəli mənzil çıxarışı itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150